Yeni iliniz mübarək!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№ 52 (995) 28 dekabr 2017-ci il - 3 yanvar 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"-nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2017-ci il**








# Əzəmətli "Bakı Ağ Şəhər" layihəsi reallığa çevrildi



Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də Xaqani Rüstəmov küçəsinin, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin açılışında, yeni salınmış parkın, inşası və abadlığı başa çatan məhəllələrin təqdimat mərasimində iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə paytaxtdakı "Qara şəhər" öz yerini əzəmətli "Bakı Ağ Şəhər"ə verməkdədir. Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu mükəmməl layihə reallığa çevrilir, miqyası və keyfiyyətinə görə diqqəti cəlb edir. "Bakı Ağ Şəhər"də böyük həcmdə tikinti-quraşdırma və abadlıq işləri görülüb, neft tullantıları ilə çirklənmiş sahələrin təmizlənməsi yekunlaşıb.

Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və "Bakı Ağ Şəhər"in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Burada mükəmməl infrastruktur yaradılır.

Yeni yollar, səkilər salınarkən onların ən müasir standartlara maksimum cavab verməsi, əhalinin rahatlığı, təhlükəsizliyi xüsusi diqqət mərkəzində saxlanılır. "Bakı Ağ Şəhər"in tikintisi və burada infrastrukturun yaradılması zamanı dövlətimizin başçısının tapşırıqlarına əsasən kompleks iş aparılır, bütün mövcud tələblər və gələcək inkişaf nəzərə alınır. Yerli şirkətlərlə yanaşı, dünya şöhrətli iqtisadi qurumlar da bu layihəyə cəlb edilib. Ötən müddətdə bu layihə beynəlxalq səviyyədə bir sıra yüksək mükafatlara layiq görülüb. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, "Bakı Ağ Şəhər"də ekoloji problemlərin həlli ən başlıca prioritetlərdən biridir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov və "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına ərazidə görülən işlər barədə məlumat veriblər.

Bakının iki əsas prospektini - Babək və Nobel prospektlərini və Mərkəzi Bulvar küçəsini birləşdirən, "Ağ Şəhər" bulvarına qədər davam edən və uzunluğu 1050 metr, eni 45 metr olmaqla 6 zolaqlı Xaqani Rüstəmov küçəsinin yenidənqurma işləri tamamlanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"in tikintisi və abadlığı başa çatmış Babək Qərb kvartalında, Mərkəzi Bulvar və Süleyman Vəzirov küçələrinin kəsişməsində yeni salınmış parkla da tanış olmuşlar.

"Bakı Ağ Şəhər"də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini vermişdir.

# Hövsan Yaşayış Kompleksində ilk binanın təməli qoyuldu

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlqoyma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev əvvəlcə Agentliyin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisinin hazırkı vəziyyəti barədə məlumat vermişdir. Bildirilmişdir ki, ötən il dekabrın 24-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməlqoyma mərasimi keçirilən Yasamal Yaşayış Kompleksinin tikintisi sürətlə davam etdirilir. 1843 ailəni mənzillə təmin edə biləcək bu yaşayış kompleksinin 29 çoxmənzilli binasının hər birinin müxtəlif icra mərhələlərində olan tikintisi, həmçinin ərazinin müvafiq mühəndis-kommunikasiya sistemi ilə təchiz edilməsi işləri paralel həyata keçirilir. Ümumilikdə isə kompleks 2019-cu ildə tam təhvil veriləcək.

Yasamal Yaşayış Kompleksinin tikintisində 20-dən artıq şirkət iştirak edir və ümumi tikinti prosesinə 3 min nəfərə yaxın işçi cəlb olunub.

Suraxanı rayonu ərazisində, Hövsan qəsəbəsinin yaxınlığında inşa olunacaq Hövsan Yaşayış Kompleksi Bakının sürətlə inkişaf edən şərq hissəsində, Xəzər sahilindən cəmi 2 kilometr məsafədə, yaşayış və istirahət üçün olduqca rahat bir məkanda yerləşəcək. Kompleksdə çoxmənzilli binalarla yanaşı, insanların rahat yaşayışı üçün zəruri olan hər cür şəraitin yaradılması, geniş həyətlərin, yaşıllıq zonalarının, uşaq meydançalarının, sosial infrastruktur obyektlərinin tikintisi aparılacaq.

Dövlətimizin başçısı Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlini qoymuşdur.




ADY
Azərbaycan Dəmir Yolları QSC
www.ady.az




31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımızı ürəkdən təbrik edir!

# Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir

Dekabrın 21-də Bakıda, Heydər Əliyev Mərkəzində "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans keçirilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılış mərasimində iştirak edib.
Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söyləmişdir. O, demişdir:
- Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.
Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim müsəlman diyarıdır. Bizim digər tarixi dini abidələrimiz də milli sərvətimizdir.
Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür.
Ölkə daxilində İslam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işində onlara münasibətimiz bir daha göstərir ki, İslam həmrəyliyi bizim üçün, sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.
Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir.
Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir.
Azərbaycan keçən ili "Multikulturalizm İli" elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda, həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər - islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də yüksək səviyyədən. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək.
Qeyd etdiyim kimi, Azərbaycanın İslam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Eyni zamanda, bizim



Avropa ölkələri ilə də sıx əlaqələrimiz var. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalamışdır.
Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və aparılacaq. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.
Bu il biz İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmişik. Əllidən artıq ölkədən 3 mindən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu Oyunlar bir daha göstərdi ki, İslam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin.
Yəni, bu iki hadisə özlüyündə bir göstəricidir. Amma, eyni zamanda, həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm İslam aləminin bizə olan münasibətini göstərir, həmçinin onu göstərir ki, bir daha dediyim fikirlərə qayıdıram - Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.
Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda görüşdülər. Çox səmərəli görüş keçirilmişdir, çox səmimi fikir mübadiləsi aparılmışdır. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, yəni, bu, sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni, bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə "Bakı Prosesi" adı verildi. "Bakı Prosesi" bütün beynəlxalq mötəbər təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaq.

* * * * *

Tədbirdə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Moskva və bütün Rusiyanın Patriarxı Kirillin və başqalarının müraciətləri oxunmuşdur.






# 2017-ci il Azərbaycan iqtisadiyyatında mühüm hadisələrlə yadda qaldı

**Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi: "2017-ci il dərin islahatlar ili kimi yadda qalacaq".**

• 2017-ci ildə məhz bu islahatlar nəticəsində ilk növbədə qeyri-neft sektorunda 2% artım baş vermiş, kənd təsərrüfatında 3%, qeyri-neft sənayesində 4% artıma nail olunmuşdur.

• 2017-ci ildə Azərbaycan manatının sabitliyinin saxlanılmasına və inflyasiyanın cilovlanmasına cəhdlər oldu və bu, öz nəticələrini göstərdi.

İlk dəfə bu ildən başlayaraq Azərbaycanda strateji valyuta ehtiyatları artdı və artıq ilin sonunda 42 milyard ABŞ dolları həcmindədir.

• 2017-ci ilin oktyabrında Azərbaycanda Bakı-Tbilisi-Qars tarixi İpək yolunu müasir dövrün dəmir ipək yoluna çevirən nəhəng layihə reallaşdırıldı.



Bu, 3 ölkənin - Azərbaycan, Gürcüstan və Türkiyənin nəqliyyat yollarını Avropa ilə Asiyaya birləşdirən, eləcə də öz əhəmiyyətli strateji mövqeyinə və iqtisadi imkanlarına görə alternativ marşrutlardan fərqlənən müasir nəqliyyat və logistika qovşağına çevrildi.

• 2017-ci ildə "Əsrin kontraktı"nın uzadılması ilə bağlı yeni saziş imzalanmışdır. Azərbaycan "Əsrin Müqaviləsi"ni 2050-ci ilə qədər uzatmaqla və daha 45 milyard dollar investisiya yatırılmasını təmin etməklə özünün uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirdi. 2050-ci ilə qədər daha yaxşı şərtlərlə kontrakt imzalanıb. Bu kontraktın icrası nəticəsində Azərbaycana 3,6 milyard dollar sadəcə olaraq bonus şəklində veriləcəkdir. Dövlət Neft Şirkətinin payı 11 faizdən 25 faizə qaldırılıbdır. SOCAR, eyni zamanda, operator funksiyasını daşıyacaq və mənfəət neftinin 75 faizi 2050-ci ilə qədər, yəni kontraktın bütün müddəti ərzində Azərbaycana qalacaq. Başda BP olmaqla dünyanın ən nəhəng neft şirkətləri ölkəmizə mövcud sabitliyə, iqtisadi inkişafa, dünya iqtisadiyyatına inteqrasiyaya görə sərmayə yatırmağı davam edirlər.

• Bu il ölkəmizin həyatında baş verən çox əlamətdar bir tarixi hadisənin şahidi olduq: Azərbaycanda 2 milyardıncı ton neft hasil edildi. Neftçilərin ağır və şərəfli əməyini yüksək qiymətləndirən dövlət başçısı öz çıxışında vurğulamışdır: "Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycan xalqına xidmət etmişlər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilmişdir".

• 2017-ci ildə Strateji Yol Xəritəsinin icrasına başlanıldı. Artıq ilin sonuna doğru nəticələri öz bəhrəsini verməkdədir. Qeyri-neft sektorunda bir çox sahələrin inkişafı istiqamətində ciddi addımlar atıldı, dövlət tərəfindən kənd təsərrüfatının pambıqçılıq, baramaçılıq və digər sahələrinin inkişaf proqramları qəbul edildi. Əhalinin maddi və sosial rifah halının yaxşılaşdırılması baxımından mühüm layihələrə imza atıldı. Bu il, eləcə də maliyyə sektorunda sabitlik, şəffaflıq şəraitinin yaradılması istiqamətində mühüm işlər görüldü. Bu gün ölkədə 11 ayın qeyri-neft məhsullarının ixracı 1 milyard 387 milyon dollardır. Keçən illə müqayisədə bu, 22% artım deməkdir. Təkcə 2017-ci ildə Azərbaycandan Türkiyəyə 264 milyon dollar, Rusiyaya 498 milyon dollar, İsveçrəyə 133 milyon dollar qeyri-neft məhsulları ixrac edilmişdir. İxracın strukturunda əsas yerləri pomidor, qızıl, qabığı təmizlənmiş fındıq tutur. Bütövlükdə, bu il meyvə-tərəvəz ixracı 35% artımışdır. Ümumilikdə, kənd təsərrüfatında ənənəvi sahələr, istərsə də yeni sahələr inkişaf etdirildikcə, ixrac potensialının get-gedə artacağı proqnozlaşdırılır.

Azərbaycanın son illər əldə etdiyi sosial-iqtisadi uğurlar nüfuzlu beynəlxalq reytinq qurumlarının hesabatlarında da öz əksini tapıb. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik hesabatı"nda Azərbaycan reytinqdə iki pillə irəliləyərək, 138 dövlət arasında 37-ci yerdən 35-ci yerə layiq görülmüşdür (*MDB ölkələri sırasında isə 1-ci yerdə*).

Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən "Doing Business 2017" hesabatında isə ölkəmiz 57-ci pillədə qərarlaşıb. *2018-ci il* üçün proqnozlar *optimistdir:*

2018-ci il iqtisadi inkişaf ili kimi yadda qalacaq, aparılan islahatlar öz müsbət nəticələrini məhz bu il verəcək. 2017-ci ildə yaradılan və istifadəyə verilən sənaye parkları, məhəllələri, texnoparklar tam gücü ilə 2018-dən fəaliyyət göstərəcək. Qarşıdan gələn il üçün qeyri-neft sektorunda artım 4%-dən yuxarı gözlənilir (dünya üzrə göstərici 3,5%).

Azərbaycanda iqtisadi inkişafla bağlı Dünya Bankı və Beynəlxalq Valyuta Fondu son bir həftədə 2 bəyanat vermişdir. Hər 2 bəyanatda ölkə prezidentinin sabitləşmə ilə bağlı apardığı uğurlu siyasət qeyd olunmaqla yanaşı, 2018-ci ildə bu yaranmış imkanlardan istifadə edərək sürətli iqtisadi inkişaf tempinə nail olunacağı proqnozlaşdırılır.

2017-ci ildə Dünya İqtisadi Forumu və Duinq biznes hesabatında Azərbaycanda islahatların yüksək səviyyəsi qeyd olunmuş, hətta Azərbaycanın Mərkəzi Asiya və Şərqi Avropa bölgəsində ən təşkilatçı 3 ölkədən biri kimi təqdim edilməsi öz əksini tapmışdır.

**Hazırladı:**
**Aytən SƏMƏDZADƏ**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# *Dövlət dəstəyi uğurlu inkişafın zəminidir*

Son illər ölkə prezidenti İlham Əliyevin də dəstəyi ilə qeyri-neft sektorunun inkişafı, bu sahəyə çoxsaylı investorların cəlb olunması, ölkənin ixrac imkanlarının genişləndirilməsi istiqamətində ciddi addımlar atılmış, məqsədyönlü islahatlar həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının da əsasını təşkil edən bu tədbirlər bir çox sahələrin inkişafına əhəmiyyətli təsir göstərməklə bərabər, sahibkarlığın və bu əsasda bölgələrimizdə ciddi inkişaf dalğasının yaranmasına da səbəb olmuşdur. Bunun sayəsində ölkənin ixrac imkanları da nəzərəçarpacaq dərəcədə genişlənmiş, ixracın dəstəklənməsi üçün atılan addımlar Azərbaycan iqtisadiyyatında ixrac hədəfli məhsul istehsalının miqyasını əhəmiyyətli dərəcədə artırmış, məhsulların keyfiyyətinin daha da yaxşılaşmasına, yerli və xarici bazarlarda rəqabətədavamlı yerli məhsulların çeşidinin artmasına gətirib çıxarmışdır.

Regionlarda özünü göstərən yüksək inkişaf meyili Zərdab rayonundan da yan keçməmişdir. Burada iqtisadiyyatın aparıcı sahəsini aqrar sektor təşkil edir. Təsadüfi deyil ki, yanvar-sentyabr aylarında rayonda 64 milyon 589 min manatlıq məhsul istehsal olunub ki, bunun da 41 milyon 215 min manatını və ya 63,8 faizini kənd təsərrüfatı təşkil edib.

Rayonda son dövrlərdə xüsusi olaraq taxılçılıq və heyvandarlıq sahəsində ciddi nailiyyətlər əldə olunmuşdur. Son illər, xüsusilə baramaçılığın, pambıqçılığın, çəltikçiliyin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib. Bu il 480 qutu ipəkqurdundan 27 min 45 kiloqram barama istehsal olunub ki, bu da respublika üzrə ən yüksək göstəricidir. 611 nəfər kümçü barama istehsalına görə 250 min manata yaxın pul əldə edib.

Həmçinin, bu il 3232,3 hektar sahədə pambıq yetişdirilib və 2500 tona qədər pambıq yığılaraq, emal müəssisələrinə təhvil verilib.

Çəltikçilik sahəsində də bu il ciddi nailiyyətlər əldə olunub. Yanvar-sentyabr ayları ərzində 202 hektar sahədə çəltik əkilib və 690,7 ton məhsul istehsal olunub. Çəltik hazırda dünyada əsas ərzaq növlərindən biri sayılır. Qabıqdan təmizlənmiş halda düyü adlanan zəngin tərkibli bu qidanın küləşindən keyfiyyətli kağız, karton alınır, habelə heyvandarlıq təsərrüfatında qaba yem kimi də istifadə edilir.

Çəltikçilik hazırda ölkə prezidenti cənab İlham Əliyevin də diqqət və qayğısı sayəsində ciddi inkişaf edən sahələrdəndir. Prezident İlham Əliyevin sədrliyi ilə bu il sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində də ölkə başçısı bu sahənin önəmindən danışmış, belə sahələrin ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyətini vurğulamışdır: "Bugünkü müşavirədə isə bizim üçün ənənəvi olan çayçılıq və çəltikçilik sahələrinin inkişafı ilə bağlı məsələləri müzakirə edəcəyik. Azərbaycanda bu sahələrin böyük ənənələri var. Eyni zamanda, cənub zonasının ənənəvi kənd təsərrüfatı məhsulu sitrus meyvələridir. Son vaxtlar bu istiqamətdə də önəmli addımlar atılır. Əminəm ki, bugünkü müşavirədən sonra bu üç önəmli sahənin inkişafına yeni təkan veriləcək. Çünki dövlət artıq bu sahələrə öz dəstəyini çox ciddi şəkildə ortaya qoyur".

Rayonda ötən il 70,5 hektar, bu il isə üç dəfə çox - 202 hektar sahədə çəltik əkilib və 787,7 ton məhsul istehsal olunub. Hər hektarın məhsuldarlığı 39 sentnerə çatıb. Rayonun bir sıra yaşayış məntəqələrində, o cümlədən Yuxarı Seyidlər, Alıcanlı, Körpükənd, Qoruqbağı, Məmmədqasımlı, Pərvanlı inzibati ərazi dairələrində torpaq mülkiyyətçiləri çəltikçiliyin inkişafına öz töhfələrini verirlər. Təsadüfi deyil ki, gələn il rayonda əkin sahələrinin 300 hektara çatdırılması proqnozlaşdırılır.

Zərdab rayonunda iqtisadiyyatın digər sahələri kimi, kənd təsərrüfatının da davamlı inkişafı təmin edilmişdir. Əhalinin heyvandarlıq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəmək məqsədi ilə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün sahibkarlara lizinq yolu ilə, güzəştli şərtlərlə yüksək məhsuldar damazlıq heyvanların satılması işi davam etdirilir, heyvanlar arasında aparılan süni mayalanma tədbirləri genişləndirilir. Rayonda əvvəlki illərə nisbətən heyvandarlığın inkişaf səviyyəsi artıb. Bu da, təbii ki, ölkə rəhbərinin bu sahəyə göstərdiyi qayğının nəticəsidir. Prezident İlham Əliyevin "...bizim təcrübəmiz göstərir ki, dövlət dəstəyi olmadan



kənd təsərrüfatı uğurla inkişaf edə bilməz. Çünki dövlət bütün lazımi tədbirləri görür, vəsait qoyur, infrastruktur yaradır, texnika ilə, gübrələrlə təmin edir, laboratoriyalar təşkil edilir" sözləri də bunu bir daha təsdiqləyir.

Rayonda ət, süd və yumurta istehsalının həcmi də ötən dövrlərlə müqayisədə çoxalıb. Hazırda rayonda (01 oktyabr 2017-ci il tarixinə) 54628 baş iribuynuzlu, 113361 baş xırdabuynuzlu heyvan var. 2017-ci ilin yanvar-sentyabr ayları ərzində ət istehsalı 33049 sentner, süd istehsalı 166243 sentner, yumurta istehsalı 6 milyon 117 min ədəd, yun istehsal 1786 sentner təşkil edib. Ötən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 34 sentner, süd istehsalı 188 sentner, yumurta istehsalı 2 min ədəd, yun istehsalı 127 sentner artmışdır.

Cins maldarlığın inkişafı istiqamətində də rayonda mühüm tədbirlər həyata keçirilmişdir. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə rayonda 16 süni mayalama məntəqəsi yaradılmışdır. 2017-ci ilin yanvar-sentyabr aylarında 1766 baş inək və düyələrdə süni mayalanma aparılmış, 625 baş sağlam bala alınmışdır ki, bunun da maldarlığın inkişafına böyük təsiri olmuşdur.

Mal-qaranın yemə olan tələbatını ödəmək məqsədi ilə yonca sahələri 18612 hektara çatdırılmışdır. Cari ildə 118618 ton ot istehsal olunmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 422 ton çoxdur.

Bu il Zərdab rayonunun Gödəkqobu, Dəli Quşçu və Hüseynxanlı kəndlərində yem emalı müəssisələri tikilib istifadəyə verilmişdir. Yeni yem emalı sexlərinin istifadəyə verilməsində əsas məqsəd baha olmayan qidalı yem çatışmazlığını aradan qaldırmaqdır.

Zərdab rayonunda sənayedə də ciddi uğurlar əldə olunmuşdur.

Rayon üzrə fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən 2017-ci ilin yanvar-sentyabr aylarında malların istehsalı və xidmətlərin göstərilməsi 2746,0 min manat təşkil etmişdir. Malların istehsalı və xidmətlərin göstərilməsinin həcmi elektrik enerjisinin bölüşdürülməsi və satışı sahəsində 66,6 faiz, qazın bölüşdürülməsi və satışı sahəsində 16,1 faiz, suyun yığılması və paylanması sahəsində 4,9 faiz, tullantıların yığılması və məhv edilməsi sahəsində 0,2 faiz, qida məhsullarının istehsalı sahəsində 4,7 faiz, fiziki şəxslərdə isə 7,5 faiz təşkil etmişdir.

Sənaye sahəsində yüklənmiş mallar, görülən işlər, göstərilmiş xidmətlərin həcmi, əsasən elektrik enerjisi, təbii qazın bölüşdürülməsi və satışı sahələri üzrə artmışdır. Sənayedə görülən ümumi işin 12,2 faizi emal sənayesinin, 82,7 faizi elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizatı sənayesinin, 5,1 faizi su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi sənayesinin payına düşmüşdür.

Sənaye sahəsi üzrə çalışanların 34,4 faizi elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat sahəsindədir. Bu sahədə çalışan bir işçiyə düşən orta aylıq əməkhaqqı 519,6 manat olmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən bir işçiyə düşən orta aylıq əməkhaqqı 2,9 faiz artmışdır. Sənaye sahəsi üzrə çalışanların 49,4 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində çalışanlardır. Hər bir işçiyə düşən orta aylıq əməkhaqqı 157,2 manat olmaqla keçən ilin müvafiq dövrünə nisbətən orta aylıq əməkhaqqının 92,6 faizini təşkil etmişdir. Sənaye sahəsi üzrə işçilərin 16,1 faizi emal sənayesində çalışanların payına düşür. Keçən ilin müvafiq dövrünə nisbətən emal sənayesi sahəsində işçilərin orta sayı iki dəfədən çox artmışdır. Bu sahədə çalışanların orta aylıq əməkhaqqısı 189,4 manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 56,0 faiz çoxdur.

Bu il rayonun Əlibəyli kəndində tibb məntəqəsi də inşa edilərək, əhalinin istifadəsinə verilib. Məntəqə ilkin tibbi yardım, vaksinasiya və digər tibbi xidmətlər üçün avadanlıqlarla təchiz olunub.

Cari ildə rayonda "Ram Süd" MMC-nin süd emalı müəssisəsi də istifadəyə verilib. Sutkalıq istehsal gücü 20 ton olan müəssisədə 100 nəfərə yaxın işçi qüvvəsi çalışır.

2017-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz artaraq, 53705,5 min manata bərabər olmuşdur. Ticarət dövriyyəsinin 30344,2 min manatını ərzaq məhsulları, 23361,3 min manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. İstehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 53,7 faizi ərzaq məhsullarının, 5,5 faizi içkilər və tütün məmulatlarının, 8,7 faizi toxuculuq məhsulları, geyimlər və ayaqqabıların, 5,4 faizi elektrik mallarının, 4,7 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,9 faizi mebellərin, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 19,0 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

2017-ci ilin yanvar-sentyabr aylarında istehlak məhsullarının 5,8 faizi hüquqi şəxs statuslu müəssisələr, 94,2 faizi fiziki şəxslər tərəfindən satılmışdır. Əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 102,9 manat və ya 2016-cı ilin müvafiq göstəricisindən nominal ifadədə 12,9 manat çox olmuşdur.

2017-ci ilin yanvar-sentyabr aylarında rayon üzrə iqtisadiyyatda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,5 faiz artaraq 243,3 manat təşkil etmişdir. İqtisadiyyatın elektrik enerjisi, qaz istehsalı, bölüşdürülməsi və təchizatı, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı rayon üzrə orta göstəricidən yüksək olmuşdur.

**Mətanət Hüseynova**

# История появления новогодней елки

Задолго до того, как люди начали праздновать Рождество, жители Древнего Египта в декабре, в самый короткий день года приносили зеленые пальмовые ветви в свои дома как символ победы жизни над смертью. Римляне в честь бога земледелия украшали дома зелеными листьями в зимний праздник Сатурналий. Жрецы-друиды вешали на дубовые ветки золотые яблоки во время празднества зимнего солнцестояния.

Первое письменное упоминание о Рождественской елке относится к 16-му столетию. В немецком городе Страсбурге и бедняки, и знатные семейства зимой украшали ели цветной бумагой, фруктами и сладостями. Постепенно эта традиция распространилась по всей Европе.



В 1804 году американские солдаты в форте Дирборн (теперь Чикаго) в Рождество приносили к себе в казармы деревца из соседнего леса.

Популярность Рождественской елки быстро росла. В 1842 году в Вильямсбуге, Вирджиния, Чарльз Миннегрод уже предлагал покупателям украшения для деревьев. В 1851 году Марк Карр доставил на улицы Нью-Йорка две воловьи упряжки, груженные елками и первым в Соединенных Штатах начал продавать праздничные деревья в розницу.

14-ый президент США Франклин Пирс принес традицию Рождественской елки в Белый дом. В 1923 году президент Калвин Кулидж впервые провел торжественную Церемонию зажигания елки, которая теперь проходит каждый год на лужайке перед Белым домом. И теперь, начиная с 1966 года, члены Национальной Ассоциации Рождественской елки преподносят самую красивую и пушистую ель первой семье Америки. Это дерево каждый год устанавливается в Синей комнате Белого дома.

***Как появилась традиция праздновать Новый год с елкой***

Традиция праздновать Новый год с елкой появилась в России при Петре I. В 1699 году он издал указ, которым ввел новое летоисчисление - от Рождества Христова, а Новый год повелел праздновать по-европейски - 1 января. Царским указом всем жителям Москвы было велено отмечать встречу Нового года: зажигать в новогоднюю ночь костры, пускать фейерверки, поздравлять друг друга, украшать дома хвойными деревьями.

После смерти Петра I новогодние елки ставить перестали. Лишь владельцы трактиров украшали ими свои дома, причем эти елки стояли на трактирах круглый год - отсюда пошло их название - "елки-палки".

Новогодние празднества и традиция ставить елки возродились при Екатерине II. А украшать елки стали лишь в середине XIX века. Считается, что первую рождественскую елку в Петербурге устроили проживавшие там немцы. Этот обычай горожанам так понравился, что они стали устанавливать елки в своих домах. Из столицы империи эта традиция начала распространяться по всей стране.

В 20-х годах прошлого столетия большевики запретили устраивать елки и праздновать Новый год, считая это "буржуазной прихотью" и "старорежимным обычаем". Кроме того, по их мнению, "новогодний праздник слишком близко стоит в календаре от поповского Рождества и не следует вводить народ в искушение". С этого момента новогодняя елка "ушла в подполье": только в некоторых семьях решались устраивать ее и делали это тайно.

В декабре 1935 года партийный деятель Павел Постышев "реабилитировал" праздник, и в 1936 году в Колонном зале Дома Союзов была устроена елка для детей и молодежи. Лесная красавица вернулась после долгих лет забвения и уже навсегда вошла в нашу жизнь вечнозеленым чудом и волшебной сказкой. В 1954 году впервые зажглась главная елка страны - Кремлевская, которая искрится и сверкает каждый Новый год.

**Подгптовила Н.Ламия**






# Bakıda "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişaf perspektivləri müzakirə olunub



Bakıda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutu üzrə yük daşımalarının təşkili və tranzit potensialının inkişafına dair İşçi Qrupun iclası keçirilib.
"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə Azərbaycan, Rusiya, Belarus və İran dəmir yollarının nümayəndə heyətləri iştirak ediblər.
İşçi Qrupun iclasında qarşılıqlı yük axınlarının bərabərləşdirilməsi üçün Azərbaycan üzərindən İran-Rusiya istiqamətindəki perspektiv yük axınları haqqında İran tərəfinin məlumat və statistikası; Körfəz və Hindistandan İran, Azərbaycan, Rusiya və Belarus ərazilərini keçməklə Avropa ölkələrinə (və əks istiqamətdə) yük daşımaları üçün yük bazasının müəyyənləşdirilməsi məqsədilə Hindistandan ekspeditorlar, operatorlar, yük göndərənlər/alanlar ilə 2018-ci ilin yanvar ayında görüşün təşkili məsələsinin nəzərdən keçirilməsi; "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə Azərbaycan, Rusiya, Belarus və İranın logistik şirkətləri arasında qarşılıqlı əlaqələr haqqında Azərbaycan tərəfinin məlumatı; Konteyner (blok) qatarlarının Astara (İran) – Moskva və əks istiqamətdə mütəmadi şəkildə işə salınması üçün hərəkət cədvəlinin müzakirəsi və təsdiqlənməsi məsələləri müzakirə edilib. Həmçinin, İran ərazisi ilə yüklü və boş vaqon, eyni zamanda, konteynerlərin keçidinə dair İran tərəfinin hesabatı; İran tərəfindən refrijerator konteynerlərinin daşınması üçün texnologiya və tariflərin müzakirəsi və Astara (İran) – Astara (Azərbaycan) yeni dəmir yolu xəttinin açılmasına dair Azərbaycan tərəfinin məlumatı müzakirə edilən məsələlər sırasında olub.
Tədbirin sonunda müvafiq sənədlər imzalanıb.

# İpoteka və Kredit Zəmanət Fondu yaradılıb



Prezident İlham Əliyev Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb.
"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi" təsdiq edilib. Nizamnamə ümumi müddəalar, fondun fəaliyyətinin məqsədi, vəzifələri və hüquqları, fondun idarəetmə orqanları, Himayəçilik Şurası, İcra orqanı, fondun nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları, daxili və kənar audit, fondun öz törəmə cəmiyyətləri, idarə, filial və nümayəndəlikləri ilə qarşılıqlı münasibətləri, fondda uçot və hesabat, fondun yenidən təşkili və ləğvindən ibarətdir. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin və "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisidir və onların bütün hüquq və öhdəlikləri, habelə əmlakı fonda keçir.
Fond Azərbaycan Respublikasında əhalinin yaşayış sahəsi ilə uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə təmin edilməsi mexanizminin yaradılması, ipoteka kreditləşməsinə yerli və xarici maliyyə resurslarının cəlb olunmasına kömək göstərilməsi ilə bağlı işləri yerinə yetirən, habelə sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə təminat verən və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən qeyri-kommersiya hüquqi şəxsdir. Fondda ictimai əsaslarla fəaliyyət göstərən və 5 nəfərdən ibarət olan Himayəçilik Şurası, habelə fondun fəaliyyətinə cari rəhbərliyi həyata keçirən İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarət olan İdarə Heyəti yaradılıb.

# Dövlət Neft Fondunun 2018-ci il üçün büdcə layihəsi müzakirə olunub



Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2018-ci il üçün büdcə layihəsi müzakirə edilib.
Fonddan bildirilib ki, dekabrın 25-də Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri, Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Artur Rasi-zadənin sədrliyi ilə keçirilən iclasda Dövlət Neft Fondunun 2018-ci il üçün büdcə layihəsi müzakirə olunub.
Müşahidə Şurası tərəfindən Azərbaycan Respublikası Hesablama Palatasının rəyi nəzərə alınmaqla Dövlət Neft Fondunun 2018-ci il üçün büdcə layihəsinə, o cümlədən Neft Fondunun idarə edilməsi ilə bağlı xərclərə dair fondun icraçı direktoru tərəfindən təqdim edilmiş məlumatlara baxılaraq, fondun büdcə layihəsi, o cümlədən Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (investisiya siyasəti daxil olmaqla) və ARDNF-nin idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edilib. İclasda, həmçinin Neft Fondunun 2018-ci il üçün büdcə layihəsinin Hesablama Palatasının rəyi ilə birlikdə təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilib.
İclasda, eyni zamanda, ARDNF-nin "Maliyyə Hesabatlarının Beynəlxalq Standartları"nın yeni "Maliyyə alətləri" adlı 9 nömrəli standartına keçidi ilə əlaqədar fondun "Mühasibat Uçotu Siyasəti" və "Hesablar Planı"na müvafiq dəyişikliklər təsdiq olunub.

# Vergilər Nazirliyində görüş keçirilib

Dekabrın 22-də vergilər naziri Mikayıl Cabbarov Bakıda səfərdə olan Gürcüstanın maliyyə naziri Mamuka Baxtadzeni qəbul edib.
Son illər ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurlardan danışan M.Cabbarov bunun əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirib və qonaqlara ölkədə aparılan islahatlar, xarici investorlar üçün yaradılmış şərait, ölkəmizdə mövcud olan əlverişli biznes mühiti və həyata keçirilən vergi siyasəti barədə məlumat verib. Qeyd edilib ki, hər iki ölkə son illərdə böyük regional layihələrin həyata keçirilməsində birgə əməkdaşlıq edirlər. Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub Qaz Dəhlizi" kimi layihələr qlobal miqyasda böyük əhəmiyyət daşımaqla, hər iki ölkənin iqtisadiyyatına böyük dividendlər gətirir. M.Cabbarov ölkələrimizin vergi xidmətləri arasında əməkdaşlığın və təcrübə mübadiləsinin müsbət nəticələr verdiyini, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd edib.
Gürcüstanın maliyyə naziri Mamuka Baxtadze ölkələrimiz arasında iqtisadi münasibətlərin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıraraq, Gürcüstan iqtisadiyyatı, qonşu ölkədə aparılan islahatlar və həyata keçirilən iqtisadi siyasət barədə məlumat verib və Azərbaycanın Gürcüstan üçün vacib tərəfdaş və əsas investor olduğunu vurğulayıb. Gürcüstanın maliyyə naziri Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılması istiqamətində hökumətin atdığı addımları yüksək dəyərləndirərək, ölkə prezidenti ilə görüşü zamanı dövlət rəhbərliyinin iqtisadi yeniliklərə böyük motivasiyasının və iradəsinin şahidi olduğunu qeyd edib. Görüşdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər vergilər sahəsində qarşılıqlı dəstək və operativ məlumat mübadiləsi barədə də fikir mübadiləsi aparıb, Azərbaycan nümayəndə heyətinin vergilər sahəsində təcrübə mübadiləsi məqsədilə Gürcüstana səfər etməsi barədə razılıq əldə olunub.


## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2018-ci il 1 yanvar** tarixindən etibarən statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edildikdən və elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- *birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,*
- *ikinci dəfə yol verdikdə **20 faizi,***
- *üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***


# 2018-ci ildən bütün vergi ödəyiciləri malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim etməlidir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları"na əsasən, ƏDV ödəyiciləri və ardıcıl 12 aylıq dövr üzrə vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər təqdim etdikləri mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri isə 2018-ci il 1 yanvar tarixindən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim etməlidirlər.
Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilmiş hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmamış şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur.
Cari ilin aprel ayının 1-dən indiyədək 7841 əlavə dəyər vergisi ödəyicisi tərəfindən 4.479.153 elektron qaimə-faktura təqdim olunub. Bu əməliyyatların ümumi dəyəri 23520,7 milyon manatdan artıqdır.
Gələn ilin əvvəlindən etibarən, elektron qaimənin bütün vergi ödəyiciləri üzrə tətbiqindən sonra, əlavə dəyər vergisində olduğu kimi, digər vergi növləri üzrə də malların satış dövriyyəsi tam şəkildə elektron qaydada nizamlanacaq və prosesə vergi orqanları tərəfindən nəzarət ediləcək.
Elektron qaimə-fakturaları vergi ödəyiciləri iki üsulla hazırlaya bilirlər: "Onlayn rejimdə" - vergi ödəyicisi İnternet Vergi İdarəsinin "e-Qaimə" altbölməsinə daxil olur və "onlayn" rejimdə elektron qaimə-fakturasını tərtib edərək, digər vergi ödəyicisinə təqdim edir. "Oflayn rejimdə" - vergi ödəyicisi elektron qaimə-fakturasını tərtib etmək üçün hazırlanmış xüsusi proqram təminatını və digər zəruri proqramları "İnternet Vergi İdarəsi"ndən öz kompüterinə yükləyir, qaimə-fakturaları bu proqram vasitəsilə internet istifadə etmədən hazırlayır və həmin faylı proqram vasitəsilə imzalayaraq sistemə yükləyir. Qeyd edək ki, bu barədə İnternet vergi idarəsində yerləşdirilmiş "Elektron qaimə-fakturanın istifadəçi təlimatı"nda da ətraflı məlumat verilib.
E-qaimənin tətbiqinin vergi orqanları və vergi ödəyiciləri üçün bir sıra üstünlükləri var. E-qaimə inzibatçılıq xərclərinin azaldılmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.
Elektron qaimə-fakturanın tətbiqinin digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır.
Bu sistemin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən və əlavə vaxt itkisinə yol vermədən birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.
Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir.

# PR etibarlılıq, loyallıq, dostluq strategiyasıdır



*Azərbaycanda təmsil olunan şirkətlər arasında öncül mövqeyi və xüsusi çəkisi olan "AtaHolding" Şirkətlər Qrupunun fəaliyyəti, həyata keçirdiyi son layihələr və əldə etdiyi nailiyyətlər, eyni zamanda, PR işinin təşkili ilə bağlı suallarımızı Şirkətlər Qrupunun Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova cavablandırıb.*

**- Dilarə xanım, Sizinlə görüşümüz 2017-ci ilin sonuna təsadüf edir. 2017-ci ildə hansı nailiyyətləriniz olub? Bir qədər bu barədə məlumat verərdiniz.**

- Bəli, dediyiniz kimi, artıq 2017-ci ili yola salmaqdayıq. Bu il bir sıra tədbir və nailiyyətlər baxımından bizim üçün də əlamətdar sayıla bilər. Bu baxımdan bir sıra yaddaqalan fəaliyyət və nailiyyətləri sadalamaq yerinə düşərdi. Məsələn, "Media Consulting & Sevices" şirkətinin apardığı monitorinqə görə, "AtaHolding"ə daxil olan "Excelsior Hotel & Spa Baku" oteli 2017-ci ildə dəfələrlə mətbuatda işıqlanan məlumatların sayına görə birinci yerdə qərarlaşıb. "AtaSığorta" ASC 2017-ci ilin noyabr ayında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri arasında mətbuatda işıqlanan məlumatların sayına görə ikinci yerə çıxıb. "AtaSığorta" ASC-nin yeni xidmətləri haqqında məlumatlar daim opertaiv ictimaiyyətə çatdırılır. Noyabr ayında "AtaSığorta" ASC növbəti 3 il müddətinə "Intertek" şirkəti tərəfindən yeni ISO 9001:2015 beynəlxalq sertifikatına layiq görülüb. Şirkət 2005-ci ildən fəaliyyətini Beynəlxalq Standartlaşma Təşkilatının (ISO) keyfiyyəti idarəetmə sisteminin tələbləri əsasında həyata keçirir. Qeyd edim ki, hər il turizm sahəsində "Dünya Səyahət Mükafatları" (World Travel Awards) adlı nüfuzlu tədbir keçirilir. Mükafatlandırma mərasimində müxtəlif ölkələrdə turizmin müxtəlif sahələrində yaxşıların ən yaxşısı seçilir. "World Travel Awards" tədbirində Azərbaycanın ən nüfuzlu otellərinin siyahısı açıqlanıb və "Excelsior Hotel & Spa Baku" oteli Azərbaycan üzrə "İlin ən yaxşı Leading Boutique Hotel 2017" nominasiyasında mükafata layiq görülüb. Əlbəttə ki, bu mükafata layiq görülmənin real əsasları var. Çünki burada beynəlxalq səviyyədə nəzərdə tutulmuş bütün xidmətlər müştərilərə təqdim edilir. "AtaTravel" MMC-nin sponsorluğu ilə "Travel X" tədbiri keçirilib. Tədbirin əsas məqsədi insanları aktiv səyahət etməyə həvəsləndirməkdir. "Excelsior Hotel & Spa Baku" otelində "Musiqi Bayramı 2", "Summer Party" tədbiri, daxili kommunikasiya planına əsasən "AtaHolding" Şirkətlər Qrupunun əməkdaşlarından ibarət komandalar arasında 28 May Respublika gününə həsr olunmuş "Nə? Harada? Nə Vaxt?" oyunu keçirilib. Qeyd edilənlərdən əlavə, 25 yanvar 2017-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelində "AtaHolding"in əməkdaşı Elməddin Hüseynov tərəfindən tələbələr üçün "Müəssisələrdə idarəetmənin səmərəliliyinin artırılması, menecmentə sistemli yanaşma" mövzusunda təlim, jurnalist qadınlar arasında 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr edilmiş breyn-rinq, 14 aprel 2017-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelinin təşkilatçılığı ilə "Baku Fashion 2017" tədbiri, 14 noyabr 2017-ci il tarixində "Ata Travel" MMC tərəfindən turizm sahəsinə aid ixtisaslar üzrə təhsil alan ali məktəb tələbələri üçün turizm və PR-ın məqsədi mövzusunda seminar keçirilib. Seminarda mövzu üzrə çıxış edənlər "Alibayov Consulting" şirkətinin rəhbəri Vəli Əlibəyov və "AtaHolding" ASC-nin Kommunikasiya şöbəsinin rəisi Dilarə Zamanova olmaqla, iştirakçılara turizm sahəsində PR fəaliyyətinin təşkili mövzusunda məlumat veriblər. Bu kimi çoxsaylı tədbirlərlə yanaşı, "AtaHolding" Şirkətlər Qrupu öz ənənəsinə sadiq qalaraq hər il olduğu kimi, bu il də media nümayəndələri üçün müxtəlif yaddaqalan tədbirlərin keçirilməsini planlaşdırır. Belə ki, ilin sonunda jurnalistlər üçün ənənəvi PR turun təşkil edilməsi nəzərdə tutulub. Tədbirdə "AtaHolding" Şirkətlər Qrupunun 2017-ci ildə PR sahəsində gördüyü işlərin təqdimatı olacaq. Keçirilmiş tədbirlərdən videomateriallar və fotoreportajlar nümayiş olunacaq. Şirkətlər Qrupuna daxil olan, 2011-ci ildə təsis edilmiş "AtaTravel" turizm agentliyi turizm sahəsində sərfəli, rahat xidmət və müştəri məmnuniyyətini qazanmaqla diqqət çəkir. Dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edən şirkət öz müştərilərinə otel, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta, viza ilə əlaqədar xidmətlər təklif edir, bu məqsədlə xüsusi endirim və hədiyyə aksiyaları da keçirir. İKT sahəsində uğurla fəaliyyət göstərən "AtaTexnologiya" şirkəti də bu sahəyə aid innovasiyaların tətbiqi, innovativ məhsulların ölkədə təqdimi və əlverişli şərtlərlə satışı, eləcə də texnoloji yeniliklərin carçısı kimi fərqlənməkdədir. Bir sözlə, holdinq fəaliyyət göstərdiyi sahələr üzrə effektivlilik və səmərəlilik, eləcə də keyfiyyət prinsiplərinə hər zaman əməl edir. Onu da əlavə edim ki, "AtaHolding"in məsul işçiləri tərəfindən mütəmadi olaraq mediaya mütəxəssislər və ya holdinq təmsilçisi tərəfindən müsahibələr və açıqlamalar verilir, bunlar ölkənin mötəbər media qurumlarında dərc edilir və ya yayımlanır.

**- İşinizi sevirsinizmi? PR Sizin üçün nə deməkdir?**

- Hamımız bildiyimiz kimi, PR ingiliscə "Public relations", yəni ictimaiyyətlə əlaqələr deməkdir. Belə bir poetik deyim də var ki, PR etibarlılıq, loyallıq və dostluq strategiyasıdır. Müasir zamanda, heç bir ciddi şirkət, müəssisə və ya təşkilatı PR-sız təsəvvür etmək mümkün deyil. Zaman keçdikcə və texnologiyalar inkişaf etdikcə PR texnologiyaları da dəyişir, mürəkkəbləşir. Hazırda PR-ın məqsədi təmsil etdiyi qurumun öz mühiti - dövlət qurumları, cəmiyyət, özəl sektor, ictimai təşkilatlar və sairlə münasibətlərini çox koordinasiyalı bir şəkildə gücləndirməkdir. Bu baxımdan tam gücü ilə yerinə yetirilən PR-ın üzərinə düşən məsuliyyət və vəzifə, həqiqətən də, böyükdür. PR-ın əsas vəzifəsi, sadaladığım və zamanın tələbindən irəli gələn yeni texnologiyaların tətbiqindən peşəkarlıqla faydalanaraq, təmsil etdiyi qurumun cəmiyyət və biznes mühiti üçün etibarlılığını qorumaq, imicini yüksəltməkdir. Bu baxımdan uzun müddətdir ki, PR sahəsində fəaliyyət göstərirəm və PR-ın üstünlüklərini uğurla tətbiq edə bildiyimiz üçün işimdən razıyam. Həmçinin, bu illər ərzində PR-la bağlı texnoloji yenilik və dəyişikliklərin tam mənimsənilməsi və lazımi səviyyədə tətbiqi sahəsində də daimi səylərimiz olub, bu sahədə çalışanların təcrübə və bilgilərini qarşılıqlı şəkildə paylaşması, beynəlxalq təcrübə və vərdişlərin qarşılıqlı aşılanması, təlimlər vasitəsilə çatdırılması da Azərbaycanda PR işinin səviyyəsinin daha da yüksəlməsinə töhfədir.

**- Bəzən deyirlər ki, PR, əsasən, moda və əyləncə kampaniyalarının təsiri altında formalaşıb və daha çox bu iki nəsnənin tanıdılmasına xidmət edir. Bu barədə fikirləriniz maraqlı olardı...**

- PR-a bu cür yanaşmaq doğru olmazdı. Öncəki sualınıza cavab olaraq qeyd etdiyim məqamlar da açıq göstərir ki, PR daha ciddi, əhatəli və mürəkkəb məsələdir. Buraya qısaca olaraq onu da əlavə edərdim ki, PR-ın məsuliyyəti və ciddiliyi bir çox hallarda başa düşüldüyündən və qəbul edildiyindən daha çoxdur. Yəni, PR heç də bir çoxlarının anladığı kimi, dəb, moda və ya əyləncənin təsiri ilə deyil, sosial və iqtisadi tələblərin daim yenilənməsi nəticəsində ortaya çıxan çağırışların, yeni situasiyaların şirkətlər və qurumlar tərəfindən qarşılanması, onlara lazımınca cavab verilməsi zərurətindən formalaşaraq, bu günə gəlib çatıb. Burada həm də cəmiyyətdə, xüsusən də, aid olduğun sferada gedən proseslərin ardıcıl izlənməsi, buna əsasən, strategiya və proqnozlaşdırma aparılması və önə çıxmaq prinsipi əsasdır. Bu məqamlar PR-ın nə qədər ciddi və mürəkkəb, eyni zamanda, çoxtərəfli peşəkarlıq tələb edən bir iş olduğuna dəlalət edir...

**- Bu gün böyük şirkətlərin PR mütəxəssislərinin əsas vəzifəsi nədən ibarətdir? Dünya iqtisadi böhranı şəraitində bazar və müştərilər şirkətlərdən nə gözləyir?**

- Əslində, hər hansı bir böhran şəraiti peşəkar PR-çılar üçün həqiqi fürsətdir. Yəni, belə hallarda adekvat bacarıqları olmayanlar PR sahəsindən gedir, onların yerini isə daha təcrübəli, zamanın tələblərinə cavab verən peşəkarlar tutur. Çünki peşəkar PR-çıların böhran şəraitində müştərilərin şirkətə olan inamını qoruyub saxlaması və onların cəmiyyətə, mediaya ötürdükləri informasiyanın etibarlılığı əsasdır. Bu baxımdan qeyd etdiyiniz şəraitdə qurumların imici PR peşəkarlığından da çox asılıdır. Çünki böhran hallarında PR çox həssas aparılmalı, koordinasiyalı və önləyici olmalı, təşəbbüsçü xarakter daşımalı və informasiya boşluğunun yaranmasına imkan verməməlidir. Hər bir böhran individual xarakterə malik ola bilər, bununla belə, bütün böhran halları üçün ümumi qəbul edilən PR prinsipləri var ki, onların qeyd etdiyiniz şəraitlərdə tətbiqi məqsədəyğundur. Buraya sürətli reaksiya və önləyici PR tədbirləri, informasiya açıqlığı və əlçatanlığı, dürüstlük, təşəbbüskarlıq, koordinasiyalılıq, eyni vaxtda bir neçə istiqamətlərdə işləmə və PR aparma bacarığı, media, müştərilər, əməkdaş və tərəfdaşlar, hökumət qurumları kimi tərəflərlə çevik iş qabiliyyəti daxildir. Bütün bunların uğurla yerinə yetirilməsi, eyni zamanda, müştəri məmnuniyyətinin təmin edilməsinə münbit zəmin yaradır. Deməli, PR-ın bütün parametrlərinə görə uğurla aparılması, həm də müştəri məmnuniyyətinin təmin edilməsi deməkdir.

> ***"Kommunikasiya – gündəlik qəbul edilən qərarlarda ifadə olunan və şirkəti yaxşı və ya pis idarə olunan struktura çevirən prosesin mühüm elementidir. Bəlkə də idarəetmə prosesində kommunikasiyanın ləğv edilməsi texniki gerilik və ya qeyri-adekvat maliyyə idarəetməsi qədər tez bir vaxtda nəzərə çarpmayacaq. Lakin bir müddətdən sonra onlar şirkəti labüd olaraq iflic edəcək. Düzgün olmayan kommunikasiya siyasəti istənilən yaxşı qərarın effektivliyini aşağı salmağa qadirdir".***
>
> ***Filipp A.Buari***

**- 2018-ci ilə sayılı günlər qalıb. Bu ildən nələr gözləyirsiniz?**

- Qarşıdan gələn 2018-ci ildə ölkəmiz, cəmiyyətimiz, eləcə də "AtaHolding" Şirkətlər Qrupu üçün sabit inkişaf, daha böyük uğurlar gözləyirəm. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bildirdiyi kimi, gələn il sürətli iqtisadi inkişaf ili olacaq. Çünki iqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər mötəbər beynəlxalq iqtisadi qurumların hesabatlarında da öz əksini tapır. Məsələn, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını iki pillə yüksəldərək, rəqabət qabiliyyətinə görə 35-ci yerə layiq görüb. Bu, çox böyük nəticədir. MDB məkanında biz birinci yerdəyik. Artıq neçə ildir ki, liderliyi saxlayırıq və bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq. Eyni zamanda, ölkəmizin bütün sahələrdə uğurlarının, rifahının artmasını diləyirəm. O cümlədən, Azərbaycanda PR işinin beynəlxalq standartlar səviyyəsində tam inkişafı, bu sahədə çalışanların peşəkarlığı da iqtisadiyyat, turizm, özəl sektor, ümumilikdə ölkəmizin rifahı üçün çox arzuolunandır. Yeni il üçün "ÅtaHolding" Şirkətlər Qrupunun yeni planları və strategiyası var ki, bunların da tam uğurla həyata keçiriləcəyinə inanıram. Azərbcaycan xalqını, o cümlədən Sizi qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, Yeni ildə tükənməz uğurlar arzulayıram.

P.S. Müsahibə çapa hazırlanarkən internetdən xoş bir xəbər oxuduq. Bu günlərdə Bakıda "E Media Group" tərəfindən "The Best of Azerbaijan" mükafatının təqdimetmə mərasimində "AtaHolding"in Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanovaya "The Best of Azerbaijan" mükafatı təqdim olunub. Bu münasibətlə Dilarə xanımı təbrik edir, gələcək işlərində uğurlar diləyirik. Onunla əlaqə saxlayıb təbrik etdik, bu barədə dedi: "Bu mükafat mənə, həmçinin mənim PR sahəsində gördüyüm işlərə verilən böyük qiymətdir. Gördüyümüz iş çətin olsa da, həmişə çalışmışıq ki, PR işlərini düzgün şəkildə aparaq. "The Best of Azerbaijan" mükafatının da verilməsi mənim üçün böyük stimuldur".

**Müsahibəni apardı:**
**Yeganə MƏMMƏDOVA**

## "AtaBank" uşaq evinin sakinlərinə futbol həyəcanı yaşatdı




"AtaBank" ASC daha bir uğurlu layihəsini təqdim edib. Daim müştərilərinə sürprizlər etməklə maliyyə sektorunun liderlərindən olan bankımız bu dəfə sosial yönümlü layihə həyata keçirib. 31 dekabr - Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibəti ilə baş tutan tədbir "SOS uşaq kəndləri" təşkilatının sakinlərinə böyük sevinc bəxş edib.

Belə ki, "AtaBank" maliyyə sektoru ilə yanaşı, bütün sahələrə diqqət ayırmaqla daim seçilir. Ölkəmizdə idmana göstərilən dövlət qayğısı əməkdaşlarımızın da asudə vaxtlarını səmərəli keçirməklərinə səbəb olub. Belə ki, Bankımız Bakı Futbol Liqasında maliyyə sektorunu layiqincə təmsil edir. Dekabrın 24-nə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin doğum gününə təsadüf edən matçımızda isə "AtaBank" daha bir layihə həyata keçirib. Bankımızın nümayəndələri oyun öncəsi "SOS uşaq kəndləri" təşkilatını ziyarət edərək, bir neçə yeniyetməni "Kristal R&R"-lə olan görüşə də dəvət edib. Həmin uşaqlar komandamız və rəqiblə birgə "Uşaqlar bizim gələcəyimizdir" şüarı ilə meydana daxil olublar, oyuna da baxıb, xüsusi hədiyyələrlə mükafatlandırılıblar. Bu dəstək oyunu izləyən azarkeşlər tərəfindən də böyük rəğbət və alqışlarla qarşılanıb.

"AtaBank" ASC-nin Kommunikasiyalar və PR şöbəsinin rəisi Oruc İbrahimov bildirib ki, bu sosial yönümlü layihə gələcəyimizin - uşaqlarımızın ölkəmizə layiqli övlad kimi yetişməsi üçün atılan addımlardan sadəcə biridir: "Bizim layihələr həmişə sabahımıza yönəlikdir. Çünki müştərilərimizə xidmət etməklə yanaşı, hər bir Azərbaycan vətəndaşına sevinc bəxş etmək və dəstək olmaq Bankımızın əsas vəzifələrindən biridir. Bu dəfə də uşaq evini ziyarət edib, uşaqların bir neçəsini oyunumuza gətirdik. İnanırıq ki, bu dəstək bir gününü bizlə keçirən oğlan və qızlarda futbola və idmana xüsusi həvəs yaradacaq. Biz uşaqlarla söhbətdə də bunu hiss etdik. Hətta onlara formalar, xüsusi hədiyyələr verdik ki, bu günü daim xatırlasınlar. Bu həm də həmin uşaq evində olanlara "AtaBank" adından bir dəstək idi. Dəstək layihələrimiz bundan sonra da davam edəcək".

## Lisenziyası ləğv edilən "DəmirBank"da kompensasiya olunan əmanətlərin həcmi 63,5 milyon manatdır

Lisenziyası ləğv edilən "DəmirBank"da kompensasiya olunan əmanətlərin həcmi 63,5 milyon manat təşkil edir.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasından (Palata) bildirilib ki, palatanın Direktorlar Şurasının dekabrın 22-si tarixli qərarına əsasən, "DəmirBank" ASC-nin lisenziyası bu il dekabrın 23-dən etibarən ləğv edilib. Banklar tərəfindən Əmanətlərin Sığortalanması Fonduna (ƏSF) hesabatlar rüblük əsasda təqdim edildiyindən ən son hesabat bu il sentyabrın 30-u tarixinə olub. Bu tarixə olan hesabata görə, bankda 66 min 286 nəfər əmanətçinin 81,5 milyon manat fond tərəfindən kompensasiya olunan əmanəti olub.

Dekabrın 22-də bankın lisenziyası ləğv edildikdən sonra qorunan əmanətlərin həcmi ilə bağlı bankda ilkin qiymətləndirmə aparılıb. Aparılan ilkin qiymətləndirmələr göstərir ki, kompensasiya olunan əmanətlərin həcmi hesablanmış faizlərlə birlikdə 55 min 213 nəfər üzrə 63,5 milyon manat təşkil edir.

Əmanətçilərin 52 min 732 nəfərinin əmanəti 1000 manatdan aşağıdır.

İlkin qiymətləndirmələr göstərir ki, bankda kompensasiya olunmayan əmanətlərin həcmi 28,3 mln. manat təşkil edir.

"DəmirBank"ın kredit ödəyiciləri ödənişlərini bankın istənilən filialında, rəsmi internet səhifəsi üzərindən (www.demirbank.az), həmçinin «MilliÖN» ödəniş sistemi vasitəsi ilə həyata keçirə bilərlər.

Bankda aparılan işlər, həmçinin ƏSF tərəfindən ödəniləcək kompensasiyalarla bağlı daha ətraflı məlumatlar dekabrın 29-da təşkil ediləcək mətbuat konfransında açıqlanacaq.

## Dünya Bankı ilə əməkdaşlığa növbəti illərdə də önəm veriləcək



Bunu kənd təsərrüfatı naziri Heydər Əsədov dekabrın 27-də Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Navid Həsən Naqvi və əməliyyatlar üzrə baş mütəxəssis Səidə Bağırlı ilə görüşdə deyib. Görüşdə əsas məqsəd Dünya Bankı ilə kənd təsərrüfatı sahəsində mövcud əməkdaşlıq haqqında müzakirələrin aparılması olub.

Nazir Heydər Əsədov Dünya Bankı ilə uzun müddətdir əməkdaşlıq edildiyini, bir çox layihələrin artıq yekunlaşaraq, yüksək nəticələr verdiyini, Quba rayonunda yaradılan Fermer Evinin özünü doğrultduğunu, ictimaiyyətin rəğbətini qazandığını, hazırda iki layihənin də uğurla həyata keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində 2000 kiçik layihə icra olunub. Layihənin uğurları bu ilin oktyabrında Dünya Bankının Vaşinqtonda keçirilən 17-ci İllik İclasında müzakirə edilib və yüksək dəyərləndirilib. Digər bir layihə - Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi çərçivəsində bruselyoza qarşı aparılmış tədbirlər planı isə Çikaqoda "Bruselyoza qarşı mübarizə" üzrə Beynəlxalq Cəmiyyət tərəfindən yüksək dəyərləndirilib və bu təhlükəli xəstəliyin mövcud olduğu digər ölkələrdə də analoji üsulun seçilməsi tövsiyə olunub.







## Yanvar-noyabr aylarında dəmir yolu ilə 13 milyon ton yük daşınıb

Bu ilin yanvar-noyabr aylarında dəmir yolu nəqliyyatı ilə 13 milyon ton yük, 2,2 milyon sərnişin daşınıb.



Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, 2016-cı ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 7,1 faiz azalma, sərnişin daşınmasında isə 25,1 faiz artım müşahidə olunub.

Orta hesabla sutkada 348 vaqon yüklənib, 419 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 13,3 min ton, Qərb istiqaməti üzrə 5,2 min ton, Cənub istiqaməti üzrə isə 0,8 min ton yüklənmə işi yerinə yetirilib.

## "ADY Express" müəyyən edilmiş tariflər əsasında BTQ ilə yüklərin daşınmasına başlayıb

"ADY Express" Bakı-Tbilisi-Qars dəmir yolu ilə müəyyən edilmiş tariflər əsasında yüklərin daşınmasına başlayıb.

Şirkətdən bildirilib ki, artıq Azərbaycan ilə Türkiyə arasında yükdaşımalara dair tariflər müəyyən edilib. Yük sahibləri və yükgöndərənlər həmin qiymətlərlə tanış olub sifarişlərini edə bilərlər. Qiymətlər cədvəlində hər iki ölkənin əsas şəhərləri arasında tariflər göstərilsə də, "ADY Express" şirkəti "qapıdan-qapıya" yükdaşımaları xidməti təqdim etdiyindən, Azərbaycanla Türkiyə arasında yüklərin nəqlini bütün istiqamətlər üzrə həyata keçirmək mümkündür.

Onu da qeyd edək ki, cədvəldə göstərilən qiymətlər hər iki istiqamətdə eynidir və tariflərə konteynerlərin ayrılması daxil deyil.



# 2017-ci ildə dünyanın qısa iqtisadi mənzərəsi



2017-ci ildə dünyada həm iqtisadi, həm də siyasi cəhətdən çoxsaylı dəyişikliklər, irəliləyişlər və sarsıntılar baş vermişdir. 2017-ci ildə əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsul (ÜDM) istehsalında ilk beşlik dəyişməz qalmışdır – ABŞ, Çin, Yaponiya, Almaniya və Böyük Britaniya.

ÜDM-in mütləq göstəricisi ölkənin onun əhalisinin sayından və ya alıcılıq qabiliyyəti paritetindən asılı olaraq nə qədər ümumi daxili məhsul istehsal etdiyini göstərir. Beynəlxalq Valyuta Fondunun 2017-ci ilin 25 dekabr tarixinə olan məlumatına görə, dünyada 188 dövlət arasında ÜDM istehsalında 1 trilyon dollarlıq həddinə 16 dövlət nail olmuşdur:

**1.ABŞ – 19.284.99;**
**2.Çin – 12.263.43;**
**3.Yaponiya – 4.513.75;**
**4.Almaniya – 3.513.75;**
**5.Böyük Britaniya – 2.885.48;**
**6.Fransa – 2.537.92;**
**7.Hindistan – 2.487.94;**
**8.İtaliya – 1.901.67;**
**9.Braziliya – 1.556.44;**
**10.Kanada – 1.530.70;**
**11.Cənubi Koreya – 1.379.32;**
**12.İspaniya – 1.291.36;**
**13.Rusiya – 1.267.55;**
**14.Avstraliya – 1.262.34;**
**15.Meksika – 1.16616;**
**16.İndoneziya – 1.024.**

Məlumat üçün qeyd edək ki, ABŞ (24,41%) və Çinin (15,41%) dünya ÜDM-ində birlikdə payı 40%-ə yaxındır.

Eyni zamanda, bu siyahıda MDB dövlətləri aşağıdakı kimi yerləşmişdir: 13.Rusiya - 1.267.55;

**55.Qazaxıstan - 135.13;**
**62.Ukrayna - 93.55;**
**70.Özbəkistan - 61.53;**
**81.Belarus - 49.25;**
**93.Türkmənistan - 37.77;**
**95.Azərbaycan - 36.2;**
**115.Gürcüstan - 15,39;**
**129.Ermənistan - 11.15;**
**144.Qırğızıstan - 6.40;**
**143.Moldova - 6.41;**
**147.Tacikistan - 5.68.**

Alıcılıq qabiliyyəti paritetinə (AQP) görə ÜDM ölkədə əmtəə və xidmətlərin müqayisəli dəyəri və əhalinin onları əldə etmək qabiliyyətini nəzərə alaraq hesablanan parametrdir. İqtisadçılar arasında ÜDM və AQP yekdil fikir olmadığına görə çox zaman adambaşına, yaxud hər nəfərə düşən ÜDM göstəricisindən istifadə olunur. Beynəlxalq Valyuta Fondunun 2017-ci ilin dekabrın 25-nə olan məlumata görə, 189 dövlət arasında alıcılıq qabiliyyəti paritetinə görə hesablanan hər nəfərə düşən ÜDM-ə görə birinci onluğa düşən ölkələr aşağıdakı kimidir (ABŞ dolları):

**1.Qətər - 129.959.03;**
**2.Lüksemburq - 1.03.388.24;**
**3.Sinqapur - 89.176.25;**
**4.Makao - 85.609.73;**
**5.Bruney - 80.048.65;**
**6.Küveyt - 71.432.81;**
**7.Norveç - 70.066.25;**
**8.BƏƏ - 68.717.03;**
**9.San-Marino - 66.180.69;**
**10.İrlandiya - 60.818.86.**

**MDB ölkələri arasında bu göstərici aşağıdakı kimi olmuşdur:**

**72.Rusiya - 8.664.06;**
**79.Qazaxıstan - 7.418.45;**
**84.Türkmənistan - 6.818.03;**
**95.Belarus - 5.237.42;**
**110.Gürcüstan - 4192.25;**
**116.Azərbaycan - 3.782.78;**
**117.Ermənistan - 3.728.71;**
**133.Ukrayna - 2.205.67;**
**141.Özbəkistan - 1.939.86;**
**143.Moldova - 1.805.89;**
**157.Qırğızıstan - 1.042.24;**
**173.Tacikistan - 643.15.**

Əhalinin sosial-iqtisadi vəziyyətinin ən mühüm göstəricilərindən biri əməkhaqqı göstəricisidir. Avropa Statistika İdarəsinin, Beynəlxalq Əmək Təşkilatının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının və milli statistika idarələrinin 2017-ci ilin dekabrın 25-nə olan məlumatına görə, 157 ölkə arasında 2017-ci ildə dünyanın birinci 10 ölkəsi aşağıdakılardır (ABŞ dolları):

**1.İsveçrə - 3855;**
**2.Norveç - 3781;**
**3.Lüksemburq - 3653;**
**4.İsveç - 3352;**
**5.Küveyt - 3211;**
**6.ABŞ - 3120;**
**7.İslandiya - 3020;**
**8.Almaniya - 2958;**
**9.Finlandiya - 2923;**
**10.Niderland - 2879.**

MDB ölkələri bu siyahıda aşağıdakı kimidir:

**69.Rusiya - 615;**
**76.Moldova - 560;**
**86.Qazaxıstan - 480;**
**95.Azərbaycan - 435;**
**104.Ermənistan - 378;**
**106.Belarus - 375;**
**110.Türmənistan - 320;**
**118.Özbəkistan - 235;**
**119.Gürcüstan - 234;**
**122.Qırğızıstan - 220;**
**125.Ukrayna - 168;**
**132.Tacikistan - 110.**

Ölkənin sosial-iqtisadi vəziyyətinə təsir göstərən amillərdən biri inflyasiya göstəricisidir.

Beynəlxalq Valyuta Fondunun 2017-ci ilin dekabrın 25-nə olan məlumatına görə, 189 dövlət arasında ən çox inflyasiya olan ilk on ölkə aşağıdakılardan ibarətdir (faizlə):

**1.Venesuela - 2200,02;**
**2.Yəmən - 21, 04;**
**3.Argentina - 20;**
**4.Anqola - 14;**
**5.Nigeriya - 12,56;**
**6.Belarus - 11,31;**
**7.Sudan - 11;**
**8.Misir - 10,4;**
**9.Özbəkistan - 9,85;**
**10.Malavi - 9,57.**

Dünyanın on ən aşağı inflyasiya göstəricisi aşağıdakı ölkələrdə qeydə alınmışdır:

**189.Seneqal - 0,06;**
**188.Ekvador - 0;**
**187.İsveçrə - 0,1;**
**186.Bruney - 0,1;**
**185.İspaniya - 0,68;**
**184.Kiribati - 0,75;**
**183.Niderland - 0,8;**
**182.Marşall adaları - 0,8;**
**181. Sloveniya - 0,8;**
**182.İtaliya - 0,84.**

**MDB dövlətləri arasında inflyasiya göstəricisi aşağıdakı kimidir:**

**6.Belarus - 11,31;**
**9.Özbəkistan - 9,85;**
**12.Qazaxıstan - 6,53;**
**35.Tacikistan - 6,44;**
**36.Moldova - 6,4;**
**39.Rusiya - 5,9;**
**58.Türkmənistan - 4,5;**
**64.Gürcüstan - 4;**
**66.Ermənistan - 4;**
**177.Azərbaycan - 1.**

Dövlət borcu da ölkənin sosial-iqtisadi inkişafına təsir göstərən amillərdən biridir.

Beynəlxalq Valyuta Fondunun 2017-ci ilin dekabrın 25-nə olan məlumatına görə, 185 dövlət arasında ÜDM-də faiz etibarı ilə dünyanın ən çox dövlət borcu olan birinci onluğa daxil olan dövlətlərə aiddir:

**1.Yaponiya - 250.91;**
**2.Livan - 147,62;**
**3.İtaliya - 131,71;**
**4.Eritreya - 127,5;**
**5.Portuqaliya - 127,53;**
**6.Kabo-Verde - 122,25;**
**7.Butan - 122,12;**
**8.Yamayka - 116,07;**
**9.ABŞ - 107,48;**
**10.Barbados - 106,58.**

**MDB ölkələri arasında bu göstərici aşağıdakı kimidir:**

**22.Ukrayna - 92,31;**
**44.Qırğızıstan - 73,52;**
**48.Belarus - 68,89;**
**84.Tacikistan - 54,43;**
**96.Ermənistan - 48,93;**
**104.Moldova - 45,02;**
**110.Azərbaycan - 43,8;**
**125.Gürcüstan - 38,77;**
**162.Türkmənistan - 24,54;**
**173.Qazaxıstan - 20,46;**
**175.Rusiya - 19,43;**
**177. Özbəkistan - 15,19.**

Amma mütləq ölçü baxımından dünyanın ən çox borcu olan dövlət ABŞ-dır -19,3 trilyon dollar.

Beləliklə, 2017-ci ildə dünyanın iqtisadi mənzərəsinə qısa nəzər saldıq.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "Petkim" cari ildə 400 min ton əlavə məhsul istehsal edib

"Petkim PetroKimya Holding A.Ş." bu il 400 min ton əlavə məhsul istehsal edib.

Bu barədə "Petkim" neft-kimya holdinqinin icraçı direktoru Anar Məmmədov deyib. O bildirib ki, kompleksin istehsal gücündən istifadə göstəricisi 97 faizə çatdırılıb. Keçən il isə bu göstərici 89 faiz təşkil edirdi.

A.Məmmədov qeyd edib ki, gələn il istifadəyə veriləcək "Star" neft emalı zavodu "Petkim"ə müsbət təsir göstərəcək: "Çünki hazırda biz illik 2 milyon ton nafta alırıq. "Star" istismara veriləndən sonra "Petkim"in xammala olan tələbatının 100 faizi bu zavod vasitəsilə ödəniləcək. "Petkim" "Star" zavodunun payçısı olmağı da düşünür və bu pay böyük həcmdə olacaq".

O bildirib ki, "Petkim PetroKimya Holding A.Ş."nin yaratdığı "Petkim Specialities Mühendislik Plastikleri Sanayi ve Ticaret A.Ş." ("Petkim Specialities") adlı törəmə şirkəti yeni məhsul – "masterbach" istehsal etməyə başlayacaq.

Qeyd edək ki, "Petkim" əlavə dəyəri yüksək, müasir mühəndislik məhsulu olan plastiklərin ("masterbach", "compund") və kimyəvi məhsulların istehsalında ixtisaslaşacaq "Petkim Specialities" adlı və 100 faizi "Petkim"ə məxsus yeni şirkət yaradıb. Şirkətin nəzdindəki 14 min ton istehsal tutumuna malik Plastik İstehsalı Fabrikinin bütün imkanlarının "Petkim Specialities" tərəfindən istifadə edilməsi planlaşdırılır. Müəssisənin ilkin istehsal tutumu 10 min tondur və gələcəkdə bu həcmin 24 min tona çatdırılması nəzərdə tutulur.

# Rusiyalı turistlər Yeni il ərəfəsində ən çox Minsk və Bakıda istirahət edəcəklər

Azərbaycanın paytaxtı Bakı şəhəri MDB dövlətləri arasında Yeni il bayramı ərəfəsində rus turistlərin ən çox istirahət edəcəyi ikinci şəhər sırasındadır.




BELTA-ya istinadən xəbər verilir ki, Rusiyanın Tvil.ru şirkətinin reytinqinə görə, 2017-ci il dekabrın 30-dan və 2018-ci il yanvarın 8-ə qədər olan müddətdə rus turistlərin səfər edəcəkləri şəhərlər sırasında ilk sıranı Belarusun paytaxtı Minsk, ikinci sıranı Bakı, üçüncü sıranı isə Qazaxıstanın Almatı şəhəri tutur. Gürcüstanın paytaxtı Tbilisi isə dördüncü sırada qərarlaşıb.

# "FAO-Azərbaycan tərəfdaşlıq proqramı" çərçivəsində təqdim edilən layihələr nəzərdən keçirilib



Dekabrın 26-da Kənd Təsərrüfatı Nazirliyində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan Tərəfdaşlıq Proqramı (FATP) Rəhbər Komitəsinin ikinci görüşü keçirilib.

Nazirlikdən bildiriblər ki, nazir müavini İlham Quliyev FAO ilə Azərbaycan arasında həyata keçirilən layihələri yüksək qiymətləndirib, gələcəkdə də yeni layihələrin reallaşdırılması üçün əməkdaşlığa önəm verildiyini deyib.

Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlığın inkişafı şöbəsinin müdiri Qalib Əbdüləliyev "Azərbaycanda iribuynuzlu damazlıq heyvanların effektiv yetişdirilməsi və yemlənməsi sistemlərinin yaradılması yolu ilə iribuynuzlu heyvandarlığın inkişaf etdirilməsi", həmçinin "Azərbaycanın yüksək və alçaq dağlıq əraziləri üçün dayanıqlı qoyunçuluq istehsalı strategiyalarının hazırlanması" layihələri barədə geniş məlumat verib və bu layihələrin heyvandarlığın inkişafına töhfə verəcəyini qeyd edib. Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktor müavini Elmar Allahverdiyev "Azərbaycanda xəstəliklərdən azad milli kartof toxumçuluğu sisteminin yaradılması" layihəsi barədə ətraflı məlumat verərək, ölkəmizdə bu sahənin inkişafı üçün potensial imkanların olduğunu bildirib.

Görüşdə hər bir layihə ətrafında geniş fikir mübadiləsi aparılıb.

FAO-nun Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak ölkəmizlə əməkdaşlığı yüksək qiymətləndirərək, yeni layihələrin həyata keçirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Nazirliyin müvafiq şöbələri və qurumlarının rəhbərlərinin, həmçinin Xarici İşlər, Ekologiya və Təbii Sərvətlər, Maliyyə nazirliklərinin nümayəndələrinin iştirak etdiyi görüşdə "FAO-Azərbaycan tərəfdaşlıq proqramı" çərçivəsində təqdim olunan layihələr müzakirə olunub.

# Bakı şəhərinin və regionların turizm təqvimi hazırlanıb

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq Mədəniyyət və Turizm Nazirliyi və nazirliyin nəzdində fəaliyyət göstərən Milli Turizm Təbliğat Bürosu tərəfindən Bakı şəhərinin və Azərbaycanın regionlarının 2018-ci il üçün turizm təqvimi hazırlanıb.



Nazirlikdən bildirilib ki, təqvim Turizm Şurasının üzvlərinə təqdim olunub və Şura üzvləri ilə razılaşdırılıb. Turizm təqvimi ölkənin rəsmi turizm saytları olan azerbaijan.travel və salambaku.travel səhifələrində yerləşdirilib.

Turizm təqvimində il ərzində qeyd olunacaq tədbirlər barədə məlumatlar yer alıb. İstifadəçilər maraqlarına uyğun olaraq ölkəmizdə təşkil olunacaq festival, sərgi, konsert, idman və digər tədbirlərlə bağlı məlumatlara daha asan çıxış əldə edə biləcəklər. Təqvimin mütəmadi olaraq yenilənməsi də nəzarətdə saxlanılacaq. Gələcəkdə təqvimdə yer alan tədbirlərə biletlərin onlayn satışını həyata keçirən qurumların veb-səhifələrinə inteqrasiya da nəzərdə tutulub. Bu da həm yerli, həm də xarici turistlərin təqvimlə tanış olduqdan sonra dərhal bilet əldə edə bilmələrinə yardımçı olacaq.

Ölkə üzrə təqvimlə http://azerbaijan.travel/en/events, Bakı şəhəri üzrə təqvimlə isə http://salambaku.travel/en/events linkləri vasitəsilə tanış olmaq mümkündür. Saytlar ingilis və rus dillərində fəaliyyət göstərir. Həmçinin saytlar mobil versiyaya da uyğunlaşdırılıb.


SOCAR
Azərikimya İstehsalat Birliyi
31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə xalqımızı təbrik edir, yeni ildə hər kəsə xoş güzəran, ruzi-bərəkət, firavanlıq, əmin-amanlıq və qələbə arzulayır.


azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Xalqımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinə xoşbəxtlik, firavanlıq arzulayır!


SOCAR
Neftqaztikinti tresti
Sizləri qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər şeyin könlünüzcə olmasını arzulayır.


SOCAR
Sosial İnkişaf İdarəsi
Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edirik. Bütün qəlbimizlə Sizə gözəl əhvali-ruhiyyə arzulayırıq! Qoy, qarşıdan gələn il Sizə uğur bəxş etsin!

# «Azərbaycan iqtisadiyyatı müasir şəraitdə: reallıqlar və gözləntilər»

UNEC-in Rus İqtisad Məktəbində (RİM) Dünya azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş III Tələbə Elmi Konfransı keçirilib. "Azərbaycan iqtisadiyyatı müasir şəraitdə: reallıqlar və gözləntilər" mövzusuna həsr olunan elmi konfransda Azərbaycanın və Rusiyanın nüfuzlu ali təhsil müəssisələrinin, eləcə də elmi mərkəzlərin nümayəndələri, magist və tələbələri iştirak edib.

Konfransın açılışında çıxış edən UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, professor Damət Bağırov cəmiyyətin inkişafında elm və təhsilin mühüm rol oynadığını vurğulayaraq, dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğıdan danışıb. Gənclərin elmi tədqiqatlara marağının artırılmasına ölkədə xüsusi önəm verildiyini bildirən D.Bağırov bu istiqamətdə ali təhsil müəssisələri qarşısında duran vəzifələrə diqqət çəkib. O, UNEC-də həyata keçirilən layihələr, aparılan tədqiqatlar, gənclərin elmi fəaliyyətə cəlb olunması istiqamətində görülən işlərdən bəhs edib.

RİM-in dekan müavini Anar Eyyubov və "İqtisadiyyat" kafedrasının müdiri, professor Müslüm İbrahimov tələbə elmi konfransının keçirilməsinin əhəmiyyətindən danışıblar.

Tələbələrdə elmi tədqiqat işlərinə marağın yüksəldilməsi, elmi-praktik layihələrin hazırlanması, o cümlədən onların bilik və bacarıqlarının formalaşdırılmasındakı rolunu vurğulayıblar. Konfrans öz işini plenar və bölmə iclaslarında davam etdirib. "Qloballaşma şəraitində milli iqtisadiyyatın inkişafının müasir vəziyyəti və tendensiyaları", "Dünya iqtisadiyyatının yeni çağırışları kontekstində Azərbaycanın maliyyə sistemi", "Milli iqtisadiyyatın transformasiyası kontekstində idarəetmənin innovativ texnologiyaları", "Azərbaycan dünya və regional güclərin geosiyasi maraqlarının kəsişməsi kontekstində" mövzularında keçirilən plenar və bölmə iclaslarında Rusiya və Azərbaycanın aparıcı universitetlərinin tələbə və magistrlərinin 187 elmi məruzəsi dinlənilib.

# UNEC sahibkarlıq universitetinə çevrilmə yolunda: "İnnovativ startaplar Ekosistemi"

UNEC-də innovativ sahibkarlığın inkişafı ilə bağlı tələbələrlə görüş keçirilib.



UNEC-in sahibkar universitet modelini inkişaf etdirməyi hədəflədiyini diqqətə çatdıran rektor, professor Ədalət Muradov bu istiqamətdə həyata keçirilən layihələrdən söz açıb. O, UNEC-in iş dünyası ilə birlikdə yeni strateji əməkdaşlığa başladığını bildirərək, "UNEC2B" Platformasının mahiyyətindən bəhs edib. Sahibkarlıq universiteti modelinin inkişafında mühüm rol oynayan insan kapitalına diqqət çəkən rektor bu sahədə UNEC-in tələbələrinin yüksək potensiala malik olduğunu vurğulayıb.

Ə.Muradov UNEC-in sahibkarlıq modelinə əsasən, innovativ sahibkarlığın əsasını tələbə startaplarının təşkil edəcəyini diqqətə çatdırıb. UNEC Biznes Məktəbinin direktoru Asəf Əsədov "UNEC-də innovativ sahibkarlığın inkişafı: innovativ startaplar ekosistemi" mövzusunda təqdimatla çıxış edib. O, tələbələrə startapda uğur qazanmaq üçün ən vacib üç faktoru açıqlayıb: "İnnovativ ideyanın dəyəri, onun əvvəlcədən prototipə, sonradan isə müştərini cəlb edən kommersiya məhsuluna çevrilməsi və üzvlərinin biri-birini bilik və bacarıqları ilə tamamlayan dayanaqlı komandanın yaradılması".

A.Əsgərov UNEC-də yeni yaradılacaq startapların radikal innovasiyalar üzərində çalışmasını və bunun üçün uzunmüddətli strategiyanın hazırlanmasının vacibliyini vurğulayıb. Startaplar üçün ən vacib anlayışları izah edən mərkəz direktoru UNEC-də innovativ sahibkarlıq modelinin yaradılması və hansı startaplara üstünlük veriləcəyi barədə danışıb.

Görüşdə bildirilib ki, mentorlar startapçılar üçün biznes və yumşaq bilikləri, o cümlədən komanda işi, liderlik və "lean" startap marketinq modeli üzrə təlimlər təşkil edəcəklər. İnnovasiya modellərinin tətbiq edilməsi üçün təklif edilən layihələr informasiya kommunikasiya texnologiyalarına əsaslanan təhsil və təlim texnologiyaları, elektron maliyyə və marketinq texnologiyaları və yaşıl texnologiyalar üzərində köklənəcək. Startapların ayrı-ayrı komandalar kimi işləməklə yanaşı, bir-birinə dəstək verən startaplar ekosistemi kimi fəaliyyət göstərəcəyi də vurğulanıb. Tələbələrin bilik və bacarıqları, eləcə də novator ideyalara sahib olduqları önə çəkilən görüşdə UNEC-in startaplarının yaxın gələcəkdə ölkədə və regionda lider şirkətlər kimi formalaşacağına əminlik ifadə olunub.

# Bu il sahibkarlara 146 milyon manat güzəştli kredit verilib

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun dekabrın 27-də Suraxanı rayonunun Əmircan qəsəbəsində keçirdiyi işgüzar forumda müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlıq subyektlərinə 8,8 milyon manat güzəştli kredit verilib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kreditlər əsasən, aqropark, istixana kompleksinin yaradılması, heyvandarlıq, tərəvəzçilik, quşçuluq, qapı-pəncərə istehsalı və s. sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması 200-dən çox yeni iş yerinin yaradılmasına imkan verir. Yüzdən çox sahibkarın iştirak etdiyi işgüzar forumda Suraxanı rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan istixana və zeytunçuluq təsərrüfatlarının, badam bağının salınması, plastik və karton tara istehsalı müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, kiçikhəcmli investisiya layihələrinin ümumi dəyərinin bütünlüklə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi vurğulanıb, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev 2017-ci ildə fondun fəaliyyəti, güzəştli kreditlər hesabına regionlarda, eləcə də Bakı şəhərində və onun qəsəbələrində həyata keçirilən layihələr barədə forum iştirakçılarına məlumat verib. Bildirilib ki, bu il 1953 sahibkarlıq subyektinin ümumi dəyəri 635,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə 146 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına maliyyələşdirilmiş layihələrin reallaşdırılması 6600-dək yeni iş yerinin açılmasına imkan yaradır. Verilən kreditlərin 65 faizi respublikanın regionlarının, 35 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Güzəştli kreditlərin 67,6 faizi aqrar sektorun, 32,4 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına və s. yönəldilib.

Qeyd edilib ki, 2017-ci ildə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən 60 müəssisə istifadəyə verilib, 40 müəssisə üzrə isə tikinti-quraşdırma işləri davam etdirilir.

# "AzerGold" bu il 150 min unsiyayadək qiymətli metal ixrac edib

QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu ilin aprel-dekabr ayları ərzində "AzerGold" həyata keçirdiyi ixrac əməliyyatları üzrə 60 min 552 unsiya qızıl və 86 min 806 unsiya gümüş ixrac edib. Qiymətli metalların ixracı ölkə iqtisadiyyatına 121 milyon manatdan çox gəlir gətirib. Qiymətli metalların dünya bazarında satışının təşkili üçün beynəlxalq affinaj şirkətlərinin tələb etdiyi KYC ("Know Your Customer") və təhlil ("due diligence") prosedurlarını uğurla keçərək, "AzerGold" QSC cari ilin aprel ayında İsveçrənin məşhur "Argor-Heraeus" şirkəti ilə qiymətli metalların saflaşdırılmasına dair müqavilə imzalayıb.

2016-cı ilin iyul ayında fəaliyyətə başlayan "AzerGold" QSC qısa müddət ərzində bir sıra əhəmiyyətli işlərin görülməsinə nail olub. Belə ki, Daşkəsən rayonu ərazisində yerləşən Çovdar filiz emalı sahəsində müxtəlif təyinatlı təmir-tikinti işləri sayəsində yatağın fəaliyyəti bərpa edilib, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, hasilat işlərinə start verilib. Ərazidə ekoloji tarazlığın qorunması üçün 6 mindən çox ağac və kol əkilib və digər işlər görülüb. Çovdar mədənində işlərin düzgün və səmərəli aparılması, insanların əmək şəraitinin yaxşılaşdırılması üçün lazımi bütün işlər görülüb və infrastruktur yaradılıb. 2020-ci ildə yatağın yerüstü (oksid) mərhələsinin istismarı başa çatandan sonra 2021-ci ildə hasilata verilməsi planlaşdırılan yeraltı (sulfid) mərhələsinin hasilatına dair texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması üzrə beynəlxalq məsləhətçi şirkət ilə əməkdaşlıq edilir.

"AzerGold" QSC-nin strateji hədəfi Azərbaycanda əlvan metal sənayesinin dayanıqlı və davamlı inkişafını təmin etməkdir. Bu məqsədlə Balakən rayonu ərazisində yerləşən və mis, sink, gümüş, qızıl, qurğuşun ehtiyatlarının həcminə görə nəinki Azərbaycan, hətta Avropa üçün böyük strateji əhəmiyyətə malik Filizçay polimetal yatağı üzrə ilkin iqtisadi qiymətləndirmə sənədi nüfuzlu beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmaqdadır. Növbəti illərdə metallurji, laborator, geotexniki, hidroloji və ekoloji tədqiqatların aparılması planlaşdırılır. Bundan başqa, Balakən rayonu ərazisində yerləşən digər yataqda – Mazımçayda ehtiyatların hesablanması üçün buruq-qazma işləri həyata keçirilib. Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Göydağ-Əlincə filiz qovşağının Ortakənd sahəsində isə kompleks geofiziki tədqiqatlar aparılıb və yaxın gələcəkdə buruq-qazma işlərinin icrası və ehtiyatların hesablanması nəzərdə tutulur.

Daşkəsən-Göygöl ərazilərində filizsaxlayan süxurlardan götürülmüş sınaq nümunələri beynəlxalq sertifikatlaşdırılmış laboratoriyada analiz olunur və analizlərin nəticələrinə uyğun kəşfiyyat işlərinin planı hazırlanır. Bu istiqamətdə növbəti illərdə də geoloji tədqiqatlar davam etdiriləcək.

Cəmiyyətin fəaliyyətinin təşkili üçün bu gün 300-ə yaxın insan daimi işlə təmin olunub. "AzerGold" QSC-nin sosial məsuliyyət üzrə siyasətinin reallaşdırılması, o cümlədən yerli icmaların ehtiyaclarının öyrənilməsi və ödənilməsi üçün Korporativ Sosial Məsuliyyət Komitəsi yaradılıb. Eyni zamanda, təcrübə mübadiləsinin aparılması və kadr potensialının formalaşdırılması üçün ASC elm və təhsil ocaqları ilə əməkdaşlıq etməkdədir.

Qısa müddət ərzində əldə olunan yüksək göstəricilər "AzerGold" QSC-yə qeyri-neft sektorunun ixracında lider mövqeləri qazandırıb.

# TAP layihəsi İtaliyada qrafik üzrə irəliləyir

Bunu AZƏRTAC-a eksklüziv açıqlamasında TAP-ın kommunikasiya rəhbəri Lisa Givert deyib.

O bildirib ki, 2015-ci il mayın 20-də İtaliyanın İqtisadiyyat Nazirliyi tərəfindən verilən əsas icazə sənədinə uyğun olaraq, TAP-ın inşasına dair digər ikinci dərəcəli icazələrin alınması üzrə işlər davam etdirilir. TAP-ın 8 kilometrlik İtaliya hissəsinin inşası çərçivəsində bu ilin mart-iyul aylarında mikrotunelin tikiləcəyi ərazidən zeytun ağacları çıxarılıb. Həmin ağaclar yaxınlıqdakı bir uşaq bağçasına (Masseria del Capitano) köçürülüb. Ağaclar burada təmənnasız saxlanılacaq və onlara müvafiq qulluq göstəriləcək. Boru kəmərinin tikintisi işləri başa çatdıqdan sonra həmin zeytun ağacları öz yerlərinə geri qaytarılacaq".

"Bundan başqa, TAP-ın dəniz hissəsinin inşasında istifadə olunacaq boruların sonuncu partiyası da sentyabrın 3-6-da İtaliyanın Brindisi bölgəsində boşaldılıb. TAP-ın Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür", – deyə L.Givert əlavə edib.

Qeyd edək ki, TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 60 faizdən çoxu tamamlanıb. Bu irəliləyiş TAP-ın keçdiyi hər üç ölkəni - Yunanıstan, Albaniya və İtaliyanı əhatə edir. TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"-nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək Şərqdən Qərbə - Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan – 550 kilometr, Albaniya – 215 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə 37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdən, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# Azercell kiber-təhlükəsizlik tədbirlərinə davam edir

İnternetdə uşaqların müdafiəsinə xüsusi önəm verən və bu sahədə son illərdə bir sıra yeniliklərə imza atan Azercell Telekom MMC daha bir layihəyə başlayıb. Artıq bir müddətdir ki, şirkət Bakı məktəblərində şagirdlər, müəllimlər və valideynlər üçün kiber-təhlükəsizlik mövzusunda təlimlərə start verib. Azərbaycan Müəllim İnkişafı Mərkəzi ilə əməkdaşlığı çərçivəsində şirkət əvvəl Bakı şəhəri 6 saylı orta məktəbdə "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlimlər keçirib.

Qeyd edək ki, 2014-cü ildə Avropa Azərbaycan Cəmiyyəti tərəfindən təsis olunmuş Azərbaycan Müəllim İnkişafı Mərkəzi (AMİM) yerli müəllimlər, məktəb liderləri və digər təhsil işçilərinə müasir tədris üsulları barədə təlimlər keçir, tədrisin bütün sahələrinə yönələn konfrans və tədbirlər təşkil edir.

Proqram, ilk növbədə texnologiyadan "qaça" bilməyəcəyimiz gerçəkliyini vurğulasa da, bu reallıqda şagirdlər, məktəblər və ailələri gözləyən təhlükələr, bu təhlükələrin qarşısının alınması və ya problemlərin aradan qaldırılması yolları, şagirdlərin internetdən təhlükəsiz istifadəsi üçün praktik məsləhətlər, məktəbdənkənar təhdidlərin tanınması və onlarla mübarizə yolları kimi çox önəmli məsələlərə toxunaraq, müasir şagird, müəllim və valideynin ən çox ehtiyac duyduğu və məsləhət almaq istədiyi mövzuları işıqlandırıb. 12-16 dekabr tarixlərində baş tutan təlimlərə sonuncu gündə valideynlər də qatılıblar. Növbəti təlim 189-190 nömrəli məktəbdə planlaşdırılıb.

Məlumat üçün bildirək ki, gələn ildən başlayaraq bu təlimlər regionlarda da keçiriləcək.



# Barama məktəblilər üçün yeni layihəyə başlayır

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə məktəblilərin inkişafına yönəlik daha bir layihənin icrasına başlayır. Yeni layihə "Azərbaycan Britaniya Kolleci" ilə birlikdə həyata keçiriləcək. 21 dekabr tarixində Azercell və "Azərbaycan Britaniya Kolleci" arasında imzalanan əməkdaşlıq memorandumuna əsasən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi tərəfindən məktəblilər üçün xüsusi təlim proqramları təşkil olunacaq. "Sahibkarlıq məktəbi", "İT məktəb" və "İT Media" adlı 3 hissədən ibarət olan proqramda sahibkarlığın əsasları, uğurlu startapların nümunələri və təqdimatlar, proqramlaşdırmanın əsasları kimi təlimlərin aparılması nəzərdə tutulur.

Bundan əlavə, şagirdlərə məktəbdən real biznes aləminə daxil olanadək dəstəyin göstərilməsi, praktiki seminarların aparılması, yay-qış məktəbi proqramlarının, məktəblilər arasında Hackaton yarışmalarının təşkili və İT üzrə Olimpiadalara hazırlıq kurslarında məktəblilərin iştirakı da proqrama daxildir. Onu da qeyd edək ki, əməkdaşlıq çərçivəsində məktəbdə şagirdlər üçün Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin ofisi açılacaq.

Nəzərinizə çatdıraq ki, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi bir müddət əvvəl məktəblilər üçün daha bir layihə həyata keçirdi. "Coding Kids – Summer IT School" adlı layihə çərçivəsində uşaqlara 6 həftə ərzində İnformasiya Texnologiyalarına və Kompüter elmlərinə giriş, Kodlaşdırma Texnikası, Mobil Tətbiqlərin Yazılması, Verilənlər Bazası, C++ Proqram dilinin öyrənilməsi və digər maraqlı mövzular tədris edilib.

# Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb




Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının Yeni il və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilmiş müsabiqənin 2017-ci il oktyabrın 25-dən dekabrın 12-dək "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirildiyini bildirib. Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamətin hər biri üzrə 6 yazı müəllifi qalib elan edilib, ümumilikdə 114 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

*****

Dekabrın 25-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb.

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, Müşahidə Şurasının üzvləri, habelə ölkənin 30-dan çox aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, yazıları qiymətləndirmiş ekspertlər və qalib jurnalistlər iştirak ediblər.

İcraçı direktor Fondun fəaliyyət göstərdiyi 8 il müddətində mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və problemlərinin həlli istiqamətində çoxsaylı layihələr həyata keçirdiyini xatırladıb. O, eyni zamanda, Fondun təşəbbüsü ilə bu il media rəhbərlərinin Naxçıvan MR-ə və Türkiyə Respublikasının İstanbul şəhərlərinə səfərlərinin təşkil olunduğunu qeyd edib.

Fondun icraçı direktoru Vüqar Səfərli müsabiqəyə 66 kütləvi informasiya vasitəsindən 153 yazı təqdim edildiyini, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini qeyd edib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxışında media nümayəndələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. O, doğum günü münasibətilə dövlətimizin başçısına sosial şəbəkələr vasitəsilə səmimi təbriklərini çatdıran media nümayəndələrinin fəallığını və təşəbbüskarlığını yüksək dəyərləndirib. Fondun keçirdiyi müsabiqələrdə ekspert kimi iştirak etdiyini xatırladan Ə.Amaşov yazıların keyfiyyətinin ildən-ilə yüksəldiyini, vətənpərvərlik hissinin gücləndiyini diqqətə çatdırıb.

Fondun ekspertlərindən - Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədli, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov çıxış edərək, keçirilmiş fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayıb, qalibləri təbrik ediblər.




# Fondun keçirdiyi müsabiqədə birinci yerə layiq görülmüş jurnalistlər mükafatlandırıldı




Dekabrın 26-da "Xəmsə" İstirahət Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına və qarşıdakı əlamətdar bayramlara həsr olunmuş tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə dövlət və hökumət qurumlarının təmsilçiləri, Milli Məclisin deputatları, ölkədə fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri, tanınmış jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media təmsilçilərini salamlayaraq 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə təbrik edib. 2017-ci ilin xalqımız və dövlətimiz üçün bir sıra tarixi hadisələrlə əlamətdar olduğunu xatırladan icraçı direktor bu ilin may ayında Bakıda IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkilini, sentyabr ayında "Əsrin müqaviləsi"nin yenilənməsi və vaxtının uzadılmasını, oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsini xüsusi qeyd edib. V.Səfərli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə inşa edilmiş sayca ikinci yaşayış binasının bu il iyul ayının 20-də dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilməsini ölkə mediası üçün son dərəcə mühüm və əlamətdar hadisələrdən biri kimi dəyərləndirib.

V.Səfərli azad sözün, müstəqil mətbuatın inkişafına, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların mənzil probleminin həllinə göstərdiyi yüksək diqqət və qayğıya görə Fondun və media ictimaiyyətinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. İcraçı direktor Fondun 2017-ci ildə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması və sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə çoxsaylı layihələri uğurla reallaşdırdığını vurğulayıb. V.Səfərli, həmçinin bildirib ki, 2017-ci ildə gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetə maliyyə dəstəyi göstərilib, həmin qəzetlərdə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 6000 səhifədən çox yazı dərc edilib.

V.Səfərli bildirib ki, 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi ilə bağlı Fond 2017-ci ilin aprel ayında Lənkəranda, sentyabr ayında Xaçmaz şəhərində regional konfranslar keçirib. İcraçı direktor bildirib ki, yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Fond may ayında bir qrup media rəhbərinin Naxçıvan MR-ə, dekabr ayında isə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərinə işgüzar səfərlərini təşkil edib.

Jurnalist peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayrıldığını deyən Vüqar Səfərli Fond tərəfindən bu məqsədlə 3 dəfə fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu diqqətə çatdırıb. Bundan əlavə, Fond il ərzində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə 3 müsabiqə təşkil edib.

Çıxışını davam etdirən Vüqar Səfərli Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə keçirilmiş müsabiqəyə 66 kütləvi informasiya vasitəsindən 153 yazı təqdim edildiyini, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini vurğulayıb. Ümumilikdə, müsabiqə iştirakçılarından 114 nəfərin mükafatçı olduğunu bildirən Vüqar Səfərli hər istiqamət üzrə I yer üçün 500 manat olmaqla 1, II yer üçün 400 manat olmaqla 2, III yer üçün 300 manat olmaqla 3 mükafatın nəzərdə tutulduğunu qeyd edib: "Bu gün müsabiqədə I yeri tutmuş jurnalistlərin mükafatlandırılması nəzərdə tutulur".

Sonra mərasimdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edərək, Azərbaycanda medianın inkişafı sahəsində həyata keçirilən dövlət siyasətindən söz açıb. 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunduğunu diqqətə çatdıran Əli Həsənov bildirib ki, başa çatmaqda olan ildə İslam ölkələri arasında həmrəyliyi gücləndirmək üçün Azərbaycan tərəfindən xaricdə və ölkə daxilində mühüm tədbirlər keçirilib. İslam Həmrəyliyi Oyunları ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəldib.



Yola saldığımız ilin jurnalistikamız üçün uğurlu il olduğunu vurğulayan Əli Həsənov deyib: "Medianın maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması 2018-ci ildə də davam etdiriləcək. 2017-ci ildə 255 jurnalist ailəsi yeni mənzillə təmin olundu. Prezident İlham Əliyevin vurğuladığı kimi, jurnalistlərə qayğı davam etdiriləcək".

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək, 2017-ci ildə Azərbaycan mediasının daha da püxtələşdiyini, peşəkarlığının artdığını söyləyib. O, doğum günü münasibətilə dövlətimizin başçısına sosial şəbəkələr vasitəsilə səmimi təbriklərini çatdıran media nümayəndələrinin fəallığını və təşəbbüskarlığını yüksək dəyərləndirib. Fondun keçirdiyi müsabiqələrdə ekspert kimi iştirak etdiyini xatırladan Ə.Amaşov yazıların keyfiyyətinin ildən-ilə yüksəldiyini, vətənpərvərlik hissinin gücləndiyini diqqətə çatdırıb: "2018-ci ildə Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcək. İnanıram ki, Prezident İlham Əliyev yenidən namizədliyini irəli sürəcək. Əminəm ki, Azərbaycan jurnalistləri mətbuatımızın dostu olan Prezident İlham Əliyevin namizədliyini bu seçkilərdə də dəstəkləyəcəklər". Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral 2017-ci ilin Azərbaycanın İslam həmrəyliyinə töhfəsi baxımından mühüm il olduğunu söyləyib. Çıxışlardan sonra müsabiqənin qaliblərinə diplomlar təqdim edilib.

Sonda tədbir bədii hissə ilə davam etdirilib.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500